

*Ramiz ORSƏR*

## ÜZÜ SƏNƏ DEYİRƏM HA!

Aprel günəşi ha deyil,
Sənə bənzəri var
gündüzlər gözümdə cilvələnən qəmin
gecələr yastığıma
mənimlə birgə baş qoyan nəmin.
And olsun Allaha
Bunları da üzü sənə deyirəm ha!

Nədən oldu bu ayrılıq,
başımıza gələn bu nə işdi?
And olsun Məcnun sevgilərə
Vətən göyləri qədər səbrim genişdi.
Vədləri də gerçək kimi sevirəm.
Onları gerçək bilib də yaşayıram.
Gələn sabahlardan güc alıb
Ötən xatirələri də
təbəssümünün işığına daşıyıram.
And olsun Allaha
Bunları da üzü sənə deyirəm ha!

Bəlkə də xəbərin yox,
daha nə həsrətə sığışıram, nə qəhərə.
Çıxış yolu da
dəryada balıq sevdası,
tapa bilmirəm

baş vursam da düşüncələrə.
And olsun Allaha
Bunları da üzü sənə deyirəm ha!

Əzəl vərdişim var:
hamıya bəlli işim,
Ev ilə iş arası
gedib-gəlişim.
Bir də oturub-durub
səni sevmək, sevmək
mənim təsəllim, işim.
And olsun Allaha
Doğruların sığındığı
Düzü sənə deyirəm, ha!
Bunları da üzü sənə deyirəm ha!

## GÖZÜM TOX, ÖZÜM TOXAM

Ah zalım dostlar, qardaşlar,
Bilmirsiniz varam, yoxam.
Dərdin, qəmin əllərində
İlişib qalıbdı yaxam.

Dəridən, qabıqdan çıxır
Əlimdəki qabarlar,
Fərasətin, hünərin var:
olanları ovut, unut,
Gözlüyümün şüşəsində
Hələ də tərləyir avqust.

Məni də bir ana doğub,
Mən də bu yerin oğluyam.
Sevənlər payıza vurğun,
Mən də avqust doğumluyam.

Adımı dəyişib gəzsəm,
Anamın ruhu bağışlar.
Ancaq atama od vurar,
İçimə yağan yağışlar.

Ümidsiz yaşamaq çətin,
Axı mənim kimim var ki!
Yer də qaçır ayağımdan,
Göylərdən gəlməyəm sanki.

Ah, zalım dostlar, qardaşlar,
Görmürsünüz varam, yoxam.

Dərd-qəmlə bütöv dolmuşam,
Gözüm tox, özüm də toxam.

## FƏRQ

Dünyaya gələndə insan
gəlir düymə-düymə,
açılır çiçək-çiçək.
Dünyadan köç edəndə
Sözalır ilmə-ilmə,
tökülür ləçək-ləçək.

## SƏRVAXT OLASAN

Mən səni sevməkdən usanmıram ki!
Gülüm, gərək sən də sərvaxt olasan.
Yerinə o qədər göz dikən var ki,
Yanımda olasan, hər vaxt olasan.

Ağlıma gəlməzlər başıma gəlir,
Həsrətin gözünü silir küləklər.
Üzündə bir udum işıq görüncə
Əlimdə sevinib gülür çiçəklər.

Gör necə yazılıb alın yazımız,
Qələmin var olsun, a yazan kişi.
Səadət vüsalsa, bu ayrılığı
Durub necə yozsun o yozan kişi?

Mən səni sevməkdən usanmıram ki!
Gülüm, gərək sən də sərvaxt olasan.
Yerinə o qədər göz dikən var ki,
Yanımda olasan, hər vaxt olasan.

## AYRILIĞIN BAYRAMI

Allahın əliylə yazılıb alnım
Bəxtimin güzgüsü – qədərim mənim.
Hamıdan yaxındı , hamıdan sadiq
Boyuma biçilən kədərim mənim.

Bilmirəm kim deyib, fərqi nədir ki,
"Yardan yarıyanın xoşbəxtlik haqqı".
Mən sənin yerinə and içəmmərəm,
Xoşbəxt olammadım, Allahım haqqı.

Sən bir ağ göyərçin, uçub da getdin,
Ovcumun içində çiçəklədi yaş.
Yanır alaf-alaf boynun, boğazın,
Xoşbəxtliyə zamin durmaz o daş-qaş.

Əlini sıxmağa əlim çatmadı,
Təbriklər növbədə: tünlük, basabas.
Aparma özünlə göz yaşlarını,
Gətir gözlərimin yaxasından as.

Mən dəli sevgimi basıb bağrıma
Hamıdan gizlədib saxlayacağam.
Ələyi ələnmiş bir yetim eşqi
Sənin gözlərinlə ağlayacağam.

## NƏFƏS-NƏFƏS, UDUM-UDUM

Bu dünyaya gözlərimi açandan
Göy üzündə ayı gördüm.
Kəndimizin kürək söykədiyi dağı,
yanından axıb gedən çayı gördüm.

Arzulara çatmaq üçün
Sevinc taxtına qonmaq,
Qəm yükünü atmaq üçün
dönə-dönə çaydan keçdim.
Dincəlməyə bağçam, bağım,
Olmadı kürək verməyə dağım.
Ümidim əllərimdə
Üzü Aya böyüdüm.
Böyüdüm nəfəs-nəfəs,
Böyüdüm udum-udum.

İtirmədim özümü görəcəyimdə,
Əzəldən
gün kimi bəlli
öləcəyim də.
Ətirlənib,
xətirlənib,
çətirlənib
İstədim
Yol üstündə həmişəyaşıl
ağac olam.
Suvardım sevdamı
göz yaşlarımla,
göyərmədim.

Gözlər baxa-baxa qurudum,
Qurudum nəfəs-nəfəs,
Qurudum udum-udum.

## BURDAN GEDİRƏM

Daha
burdan gedirəm,
Səsim eşidilməyən yerdə
qalmağıma lüzum yox.
Gözlərdən gizlədiləsi
bir gizlinim yox,
üzüm yox.

Daha
burdan gedirəm,
ağrımı, acımı
sevincimlə, sevgimlə,
Şeirlərimlə qoyub baş-başa.
Arxamca boylanan həsrət,
Sus, döz, salamat qal,
Sən də özünçün yaşa.

Daha
burdan gedirəm,
haqqa, ədalətə
papuş toxuyanlar kimi
dözümümə papuş toxuyub.
Bir də
arxamca
axıdılacaq yaşlara ,
atılacaq daşlara
bir qərib nəğmə oxuyub.

Moşu
hələ də xoşbəxtlik sözünə
qafiyə axtarırkən,
sən də
bürünüb ümidə
xoşbəxt sabahların
gələcəyini gözləyirkən
Daha
buradan gedirəm mən.

***Şəki***